**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**
**MAGİSTR DİSSERTASİYASININ**
**MÜDAFİƏSİ**

Tamamlanmış dissertasiya cildləndikdən və referat hazırlandıqdan sonra magistrant onu elmi rəhbərə təqdim edir. Elmi rəhbər onu öz rəyi ilə birlikdə ixtisas kafedrasına təqdim edir. Kafedra dissertasiyanı tədqiqat işinin tematikasına uyğun olaraq elmi dərəcəsi olan mutəxəssisə rəsmi rəyə göndərir. Rəsmi rəy də alındıqdan sonra dissertasiya kafedrada müzakirə olunur, magistrant kafedra qarşısında ilkin mudafiə etmiş olur.

**Kafedranın müzakirəsindən sonra dissertasiya, referat, plagyat arayışı, rəylər, fərdi plan və kafedranın müzakirə protokolundan çıxarış mərkəzə təqdim edilir.** Mərkəz kafedra tərəfindən təqdim edilmiş materialların əsasında magistrantın mudafiəyə buraxılması məsələsini həll edir. Mudafiəyə buraxılmış magistrantın aşağıdakı sənədləri dekanlıq tərəfindən İxtisaslaşdırılmış Elmi Şuranın Elmi Katibinə təqdim edilir.

**1. Magistr dissertasiyası (cildlənmiş) – 1 nusxə**
**2. Referat – 1 nusxə**
**3. Plagyat arayışı**
**4..Elmi rəhbərin rəyi**
**5. Rəsmi rəycinin rəyi**
**6. İxtisas kafedrasının muzakirə protokolundan çıxarişı**
**7. Magistrantın fərdi planı**
**8. Məqalələrin çap olunduğu jurnaldakı surəti və siyahısı**
**9. Magistratura və doktorantura mərkəzinin direktorunun adına ərizə**

Elmi katib sənədləri yoxlayır, qeydlərini edir, sistemləşdirir və İxtisaslaşdırılmış Elmi Şuraya təqdim edir. Dissertasiyanın mudafiəsi təhsil muəssisəsinin elmi şurasının qərarı ilə yaradılmış İxtisaslaşdırılmış Elmi Şuranın iclasında aparılır. İxtisaslaşdırılmış Elmi Şuraların yaradılma qaydaları Təhsil Nazirliyi tərəfindən muəyyən edilir və tədris muəssisəsinin rektoru tərəfindən rəsmiləşdirilir. Muəyyənləşdirilmiş qrafik əsasında magistrant İxtisaslaşdırılmış Elmi Şuranın qarşısında mudafiə edir. Hər magistrantın İxtisaslaşdırılmış Elmi Şura qarşısında mudafiəsinə 45 dəqiqə vaxt ayrılır. Bu vaxtın 15 dəqiqəsi magistrantın cıxışına ayrılır.